*İki ölkənin prezidentləri: Heydər Əliyev və Robert Koçaryan 1999-cu il ATƏT-in sammitində.*

*Mənbə: Coys Naltçayan/AFP/Getty Images*

# Nizamlama yolundakı əngəllər:

## Azərbaycanın mövqeyi

Tofiq Zülfüqarov

Tofiq Zülfüqarov 1998-99-cu illərdə Azərbaycan xarici işlər naziri, 1994-98-ci illərdə xarici işlər nazirinin müavini vəzifələrini tutmuşdur. Erməni-Azərbaycan danışıqlarında bilavasitə iştirak etmişdir. Hazırda Azərbaycanın Latviyadakı səfiridir.

90-cı illərin əvvəllərində Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində beynəlxalq vasitəçiliyə səylər göstərən Azərbaycan tərəfi bir sıra səbəbləri rəhbər tuturdu. Azərbaycan tərəfi hesab edirdi ki, beynəlxalq vasitəçilərin danışıqlarda və əldə edilmiş razılaşmaların həyata keçirilməsi mərhələsində iştirakı münaqişənin özülündə duran problemlərin həll edilməsində Azərbaycanın qərəzli mövqeyi barədə ittihamları rədd etməyə imkan verəcək və eyni zamanda erməni hərbi təcavüzü ilə qarşılaşan Azərbaycanın hərbi və inzibati resurslarının zəifliyini müvazinətləşdirəcəkdir. Bununla əlavə, ümid edilirdi ki, Qərb dövlətləri Rusiyanın Ermənistana göstərdiyi birtərəfli hərbi və siyasi yardımı neytrallaşdıracaqlar. ATƏM prinsiplərinin əsasında üzv dövlətlərin ərazi bütövlüyünün qorunması prioritet təşkil edir, Avropa dövlətlərindəki muxtariyyət təcrübəsi və fəaliyyət standartları isə Azərbaycanda erməni azlığının problemlərinin həll edilməsi üçün gələcək modelin əsasını qoya bilərdi. Nəhayət, ümid var idi ki (bu ümid elə də özünü doğrultmadı), ATƏM-in mənəvi-əxlaqi prinsiplər sistemi azərbaycanlıların münaqişə bölgəsində üzləşdikləri etnik təmizlənmənin qarşısını almaqda kömək edəcəkdir.

### 1992-1994: danışıqlar masası və döyüş meydanı arasında

Müxtəlif səviyyələrdə aparılan müzakirələr nəticəsində 1992-ci ilin martında ATƏM-in Nazirlər Şurası Dağlıq Qarabağın gələcək statusunu müzakirə etmək üçün şəraitin yaradılması məqsədilə hərbi əməliyyatların təcili dayandırılmasının zəruriliyi haqqında bir sıra qətnamələr qəbul etdi. Bu qərar 1992-ci ilin mayında açılışı gözlənilən Minsk Konfransının hüquqi əsasına və ya mandatına çevrildi. Nəzərdə tutulmuşdu ki, Ermənistan və Azərbaycan daxil olmaqla, konfransda 11 üzv dövlət iştirak edəcək.

Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının nümayəndələri "maraqlı tərəf" qismində iştirak etməli idilər. Azərbaycan tərəfinin belə formata razı olması ondan irəli gəlirdi ki, Dağlıq Qarabağ ermənilərinin danışıqlar aparmaq statusu Minsk Konfransında iştirak edən üzv-dövlətlərin statusuna bərabər olmasa və ola bilməsə də, bölgənin taleyinin həll edilməsində onların fəal iştirakı son dərəcə vacib olması başa düşülürdü. Azərbaycanın "Dağlıq Qarabağla" danışıqlar aparmaqdan imtina etməsi barədə ermənilərin və bəzi beynəlxalq müşahidəçilərin bəyanatlarına baxmayaraq, Azərbaycan tərəfi bu günədək həmin mövqedə qalmaqdadır. Belə bəyanatlar təbliğat fəndindən başqa bir şey deyil və (artıq danışıqlar mərhələsində) Dağlıq Qarabağ ermənilərinin müstəqil dövlət statusuna və azərbaycanlı əhalinin etnik təmizlənməsindən sonra yaranmış Dağlıq Qarabağın monoetnik tərkibinə olan iddialarını legitimləşdirməyə yönəlib.



1992-ci ilin birinci yarısında ATƏM-in ilk vasitəçilik cəhdləri ilə bir zamanda cəbhə xəttində qızğın döyüşlər gedirdi. Şuşanı və Laçın rayonunu ələ keçirən və Xocalı şəhərinin azərbaycanlı əhalisini məhv edən erməni qoşunlarının hərbi uğuru Dağlıq Qarabağ ərazisində yaşayan azərbaycanlıların tam etnik təmizlənməsi ilə nəticələndi.

Hadisələrin belə inkişaf etməsi danışıqların söykəndiyi bünövrəni darmadağın etdi, çünki Şuşa və Laçın rayonlarının işğalı və onun nəticələrinin aradan qaldırılması Minsk Konfransı üçün bir nömrəli məsələyə çevrildi, bu məsələnin həlli Dağlıq Qarabağın statusu müəyyən edilməzdən öncə tələb olunurdu. Bununla əlaqədar, ABŞ dövlət katibi Uorren Kristoferin təşəbbüsü ilə Romada konfrans öncəsi danışıqlar aparmaq və bir sıra fövqəladə hazırlıq görüşlərini keçirmək qərarı qəbul edildi. Vasitəçilər erməni silahlı qüvvələrinin Şuşa və Laçın rayonlarından çıxarılması və azərbaycanlı əhalinin qayıtması üzrə konkret addımları göstərən "Təcili tədbirlərin təqvim planı" adlı sənədin hazırlanmasını və qəbul edilməsini təklif etdilər.

Ümumiyyətlə, ATƏM-in (və ya 1994-cü ilin dekabrında "Müşavirə" "Təşkilata" çevrildikdən sonra, ATƏT-in) 1996-cı ilə kimi davam edən belə yanaşmasının məntiqi ondan ibarət idi ki, Dağlıq Qarabağın statusunun müzakirəsi hərbi əməliyyatların nəticələrinin aradan qaldırılması və qayıtmış köçkün əhalinin təhlükəsizliyini qoruyan beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi şəraitində aparıla bilərdi. Lakin bölgədəki vəziyyət yenidən vasitəçilərin səylərini qabaqladı. Dağlıq Qarabağ ətrafındakı Azərbaycan rayonlarını zəbt etmək və orada azərbaycanlı əhalinin etnik təmizlənməsini aparmaq üçün Ermənistan Azərbaycandakı siyasi sabitsizlikdən və 1993-cü ildə hakimiyyətin dəyişməsindən məharətlə istifadə etdi. Bütün bu hadisələr danışıqların uğursuzluğunda öz əksini tapdı.

Yalnız 1993-cü ilin payız və qışında Ermənistanın hərbi ekspansiya siyasəti nəhayət ki, Azərbaycan silahlı qüvvələrinin güclü müqaviməti ilə rastlaşdı. Qızğın hərbi əməliyyatlar, canlı qüvvə və texnika itkiləri Ermənistanın siyasi elitası üçün işğalçı hərbi strategiyanın davam etdirilməsinin baha başa gəlməsi barədə xəbərdarlıq idi. Məhz buna görə əvvəllər nəticəsiz qalan vasitəçilərin atəşkəsə nail olmaq cəhdləri 1994-cü ilin mayında Rusiyanın fəal müdaxiləsi ilə öz bəhrəsini verdi.

Təqribən həmin vaxtdan nizamlama prosesi iki əsas istiqamətə bölündü. Birinci istiqamət beynəlxalq səviyyədə iştirakın strukturu və formaları, və ilk növbədə beynəlxalq sülhməramlı əməliyyatların və beynəlxalq müşahidəçi missiyalarının xarakteri və vəzifələri ilə bağlı idi. İkinci istiqamət isə, ermənilərlə azərbaycanlılar arasında olan münaqişənin problematikasını təşkil edən məsələlərə və bu münaqişənin həlli yollarına toxunurdu.

## Vasitəçilərin ziddiyyətli gündəmləri

Azərbaycanda bir çox ekspertlər əmindirlər ki, həm Qərb, həm də Rusiya Qarabağda sülhün təmin edilməsi missiyasına nəzarəti regionda mühüm təsir vasitəsi hesab edirlər. Regionda hegemonluğa iddialı olan ölkələr arasında bu məsələyə vahid mövqeyin olmamağı danışıqlarda irəliləyişə mane olan ən əsas səbəblərdən biridir.

1995-ci ilədək Finlandiya ilə bərabər Minsk Konfransının həmsədri olan Rusiya danışıqlar prosesini həyata keçirmək, tənzimləmək və nəzarətdə saxlamaq hüququnu tamamilə öz əlinə keçirməyə cəhd göstərirdi. Azərbaycan tərəfindən olan danışıqlar iştirakçılarının fikrincə, Rusiya üçün birtərəfli vasitəçiliyin saxlanılması münaqişənin mühüm məsələlərinin üzakirəsindən daha önəmli idi. Rusiya vasitəçisi Vladimir Kazimirovun bu məsələdə olan əsas niyyəti danışıqları 4 tərəfli formatdan (Ermənistan, Azərbaycan və Dağlıq

Qarabağın ermeniləri və azərbaycanlılarından ibarət maraqlı tərəfləri) 3 tərəfli formata (Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ erməniləri) dəyişmək idi.

Rusiya maraqlarının ikinci istiqaməti ATƏM-ə münaqişə bölgəsində sülhməramlı missiyaya nəzarət, bu missiyanın təşkili və həyata keçirilməsi məsələlərində "Rusiyanın müstəsna rolunu" qəbul etdirməkdən ibarət idi. Gələcəkdə güman edilən Müstəqil Dövlətlər Birliyinin (MDB) sülhməramlı missiya variantı Azərbaycanda Rusiyanın birtərəfli təşəbbüsünün maskalanması kimi qəbul edilirdi. Bu taktikaya əlavə olaraq, Rusiya həmçinin Dağlıq Qarabağın statusunun təminatçısı kimi öz rolu barəsində saziş layihəsinə bir bənd daxil etmək cəhdlərini də etmişdir. Qərb dövlətləri Rusiyanın belə təşəbbüslərini qəbul etmirdilər və öz əks-addımlarında Azərbaycanın yalnız ATƏM-in himayəsi altında çoxmillətli sülhməramlı əməliyyatları nəzərdən keçirmək niyyətinə arxalanırdılar.

Bir tərəfdən Rusiya və Ermənistan, digər tərəfdən isə Qərb və Azərbaycanın mövqelərindəki ziddiyyətlər 1994-cü ilin dekabrında, ATƏT-in Budapeşt sammiti ərəfəsində ən yüksək nöqtəsinə çatdı. Görüşdən öncə Azərbaycan prezidenti Heydər Əliyev Rusiya prezidenti Boris Yeltsinin Moskvada görüşmək dəvətini rədd etdi. Görüşün məqsədi Rusiya və MDB-nin münaqişə bölgəsində sülhməramlı missiyanı həyata keçirmək hüququnu ATƏT-in sammitində qəbul etmək məsələsi barəsində vahid mövqeyin hazırlanması olmalı idi. Hələ sammitdən öncə Qərb dövlətləri bu problemlə bağlı artıq öz mövqelərini ifadə etmişdilər, mövqe də ondan ibarət idi ki, belə bir missiya yalnız ATƏT himayəsi altında çoxmillətli sülhməramlı missiya ola bilər. Bu prinsipial mövqe sammitin xüsusi qətnaməsində öz əksini tapdı. Rusiya formal razılıq versə də, əslində bu konsepsiyanı qəbul etmədi, nəticədə Rusiya diplomatiyası bu məsələ ilə bağlı yeni taktikanın işlənib hazırlanması ilə məşğul oldu. Bu taktikanın məğzi ondan ibarətdir ki, hər hansı sülhməramlı əməliyyatın başlanması üçün Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalanmalıdır. Belə bir sazişin mövcud olmaması sülhməramlı missiyanın başlanmasına imkan vermirdi. Hazırkı atəşkəs rejimi Ermənistana qarşı sanksiyaların tətbiq edilməsini istisna etdiyinə görə, belə "nə sülh, nə savaş" vəziyyəti artıq 11 ildir ki, davam edir.

## Nizamlama cəhdləri: "ərazilərin əvəzinə status" formulunun yaratdığı çıxılmaz vəziyyət

1996-cı ildən Ermənistan öz mövqelərini sərtləşdirərək Dağlıq Qarabağın statusu və Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş rayonların azad edilməsi məsələlərini bir yerdə həll edilməsinə təkid etməyə başladı. Bu mövqe əslində "ərazilərin əvəzinə status" formulunu əks etdirir: burada niyyət müharibə zamanı işğal edilmiş Azərbaycan torpaqlarının qaytarılması əvəzinə Dağlıq Qarabağın siyasi statusunun müəyyən edilməsindədir. Bu mövqe BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə tamamilə zidd idi və 1992-ci ildə vasitəçilərdə formalaşmış yanaşmanın qəti surətdə dəyişməsinə səbəb oldu. Təəssüf ki, vasitəçilər lazımi prinsipiallıq nümayiş etdirmədilər və Ermənistanın qeyri-konstruktiv siyasətinin ardınca gedərək faktiki olaraq, danışıqlar prosesinin bu günədək çıxa bilmədiyi dalana salınmasına imkan verdilər.

1996-cı ilin martında İsveçrə xarici işlər naziri Flavio Kotti Rusiya xarici işlər naziri Yevgeni Primakovla görüşündə Dağlıq Qarabağın statusu barəsində bəzi müddəaları ilkin sazişə daxil etmək fikrini müzakirə etmişdi. Onların görüşündən sonra Dağlıq Qarabağın statusunu ümumi şəkildə müəyyən edən tezislər Minsk Qrupunun apardığı danışıqların mövzusuna çevrildi. Qeyd etmək lazımdır ki, bu məsələdə həm Rusiya, həm də Qərb Dağlıq Qarabağın gələcək statusunun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi konsepsiyasının tərəfdarı idilər. Azərbaycanın tam dəstəyini qazanmış bu vahid mövqe 1996-cı ilin dekabrında Lissabon sammitində ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatında öz əksini tapdı. Bu mövqeyin belə yüksək səviyyəli sənəddə yer alması ermənilərin qəzəblənməsinə səbəb oldu, çünki bu mövqe aydın şəkildə nümayiş etdi ki, dünya toplumu Azərbaycan ərazisinin Ermənistan tərəfindən zəbt edilməsinə göz yummaq fikrində deyil.

1997-ci ilin əvvəlində Minsk Qrupunun ABŞ, Rusiya və Fransa həmsədrlərindən ibarət hazırkı formatı barəsində qərar qəbul edildi. Nizamlama prosesində ABŞ-ın həmsədrliyini təmin etmək, və bununla da Rusiyanın və qismən də Azərbaycan ictimaiyyətində erməniپərəst kimi qəbul edilən Fransanın rolunu tarazlaşdırmaq üçün Azərbaycan öz xarici siyasətində fəal addımlar atdı. Azərbaycanın təklif etdiyi Almaniyanın namizədliyi, təəssüf ki, Ermənistan tərəfindən dəstəklənmədi. Minsk Qrupunda üçtərəfli həmsədrlik formalaşandan sonra, həmsədrlər bir il ərzində münaqişə tərəflərinə müzakirə üçün iki təklif təqdim etdilər. Azərbaycan bu təklifləri danışıqların başlanmasının məqbul təməli kimi qəbul etdi. Bu təklifləri danışıqların davam etdirilməsi üçün başlanğıc nöqtəsi kimi qəbul edən Bakı öz rəsmi cavablarında qeyd edirdi ki, Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş ərazilərin azad edilməsinin şərtlərini müəyyənləşdirən sənədlərdə statusun konkretləşdirilməsini təklif etməklə, vasitəçilər faktiki olaraq danışıqlar prosesini durğunluğa sürükləyirlər.

Erməni tərəfi bu təklifləri rədd edərək həmsədrlərdən "paket həlli" sxeminin işlənib hazırlanmasını tələb etdi. Bu sxemə görə Dağlıq Qarabağın statusu müstəqil dövlətin statusu kimi göstərilməli idi, və yalnız bundan sonra Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş ərazilərin bir hissəsinin azad edilməsi mümkün ola bilərdi. Bu vəziyyət həmsədrlərin fəaliyyətində fasiləyə səbəb oldu, və yalnız 1998-ci ilin noyabrında həmsədrlər tamamilə yeni konseptual əsaslarla üçüncü təklifi irəli sürdülər. Ümumilikdə ilk iki təklifə bənzər olan

bu yeni təklifə "ümumi dövlətin yaradılması mümkünlüyü" haqqında tezis daxil idi. Lakin bu tezis müzakirə edilə bilən hər hansı yeni şərtlərlə Dağlıq Qarabağın Azərbaycana inteqrasiya prosesini yox, beynəlxalq hüququn iki bərabər hüquqlu subyektinin inteqrasiyasını nəzərdə tuturdu. İlk əvvəl Azərbaycanın bu təklifə həvəslə reaksiya verməsi haqqında fikirlərin heç bir əsası yoxdur. Danışıqlar üzrə bəzi tərəfdaşlarımız Azərbaycandan rəsmi cavabın gəlməməyini müsbət işarə kimi qəbul etdilər, lakin həqiqətdə Qarabağın suveren statusunu nəzərdə tutan istənilən təklif əvvəlcədən Azərbaycan üçün qəbuledilməz idi.

Minsk Qrupu həmsədrlərinin təklifinə əsasən, Ermənistan və Azərbaycan prezidentlərinin birbaşa danışıqları üçün yeni format yaradıldı. Bu görüşlər ümumi nizamlama modelinin işlənib hazırlanması üçün şərait yaratmalı idi, lakin bu görüşlərin bu günədək davam etməsinə baxmayaraq, lazımi nəticə hələ də əldə edilməyib. Azərbaycanda hesab edirlər ki, buna səbəb birinci növbədə R. Koçaryanın hakimiyyətə gəldikdən dərhal sonra elan etdiyi mövqeyidir. Qısa şəkildə bu mövqeyin məğzi belə idi: Dağlıq Qarabağın ətraf ərazilərinin bir hissəsini azad etmək yalnız Azərbaycan Dağlıq Qarabağa müstəqillik verməyə razı olduqdan sonra mümkündür, keçmiş DQMV-nin inzibati sərhədi və Ermənistan arasında yerləşən ərazilər isə Ermənistana verilməlidir.

Faktiki olaraq, söhbət Azərbaycanı kapitulyasiyaya vadar etməkdən gedir, bu da, erməni tərəfinin fikrincə, Azərbaycan üzərində hərbi qələbənin məntiqi sonluğu olmalıdır.

## Dördlüyün xartiyası

Görünür ki, məhz bu şəraitdə "ərazi mübadiləsi" adlanan konsepsiya meydana gəldi. Bu konsepsiyanın bütün təfsilatları məxfi saxlanılırdı, elə bu gün də sözü gedən təklifin əsl mahiyyəti və müəllifi barəsində dəqiq bir şey söyləmək çətindir. Lakin qeyd etmək lazımdır ki, bu məqalənin müəllifi belə konsepsiyanın müzakirə edilməsinin mümkünlüyünə qarşı etiraz edərək Azərbaycanın xarici işlər naziri vəzifəsindən istefaya verdi. Azərbaycan ictimaiyyətinə çatan qırıq məlumatlar geniş etiraza səbəb oldu, nəticədə "Dördlüyün xartiyası" adlanan sənəd qəbul olundu. Bu sənəd siyasətçilər tərəfindən deyil, tanınmış ictimai xadimlər tərəfindən hazırlanıb nəşr edildi (sənədin dörd təşəbbüsçüsündən biri olan bu məqalənin müəllifi həmin zaman artıq öz rəsmi vəzifəsini tərk etmişdi), və yüzlərlə siyasi və ictimai təşkilatın dəstəyini qazandı. Müəlliflərin fikrincə, Qarabağ münaqişəsinin nizamlanması prosesində Azərbaycan Xartiyada öz əksini tapmış məhz bu fərqli konseptual mövqeyi müdafiə etməli idi. Xartiya öz növbəsində hökumətin Qarabağla bağlı siyasəti üzrə "mini-referenduma" çevrildi. Onun əsas müddəaları bunlar idi:

- işğalçını dəf etmək və ərazi bütövlüyünü bərpa etmək üçün siyasi vasitələrlə yanaşı hərbi qüvvədən istifadənin mümkün olması;

- Dağlıq Qarabağın bütün əhalisinə - həm ermənilərə, həm azərbaycanlılara geniş muxtariyyətin verilməsinin mümkünlüyü;

- münaqişənin mərhələli çözüm metodikasının tətbiq edilməsi, bu metodika çərçivəsində Dağlıq Qarabağın gələcək statusunun həlli yalnız işğal edilmiş ətraf ərazilərin azad edilməsindən sonra mümkün olacaqdır. Yalnız bu əraziləri azad etdikdən sonra, Dağlıq Qarabağın Azərbaycanın tərkibində geniş muxtariyyətinin parametrlərini və normalarını müəyyən etmək mümkündür;

- danışıqlar prosesinin bütün mərhələləri və səviyyələrində, əldə edilmiş razılaşmaların həyata keçirilməsində və həmçinin rayonların münaqişədən sonrakı bərpasında beynəlxalq toplumun geniş iştirakı.

Sonralar Azərbaycan hökuməti "Dördlüyün xartiyasından" Azərbaycan xalqının kompromisə hazır olmadığını sübut etmək üçün istifadə etdi. Həqiqətdə isə, bu sənəd Azərbaycan cəmiyyəti üçün məqbul olan kompromisin parametrlərini müəyyən etdi. Bu parametrləri Əliyev Koçaryanla apardığı danışıqlarında açıq-aydın aşmışdı.

## Nizamlama perspektivləri

Heydər Əliyevin xəstələnməsi və vəfatı, və ardınca gələn hakimiyyətin dəyişməsi nizamlama prosesini ləngitdi. İlham Əliyevin hakimiyyətə gəlişindən sonra prezidentlər səviyyəsində görüşlər davam etdirildi və buna əlavə olaraq, iki ölkənin xarici işlər nazirlərinin görüşləri də keçirilməyə başladı.

2005-ci ilin avqustunda həmsədrlər danışıqlar masasına yeni "keçid statusu" konsepsiyasını qoydular. Bu konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, Dağlıq Qarabağda hazırkı *de fakto* vəziyyətin təsdiqlənməsi əvəzində Dağlıq Qarabağ ətrafındakı ərazilərin bir hissəsinin azad edilməsi həyata keçirilə bilər. Dağlıq Qarabağın son statusu sonradan beynəlxalq vasitəçilərin iştirakı ilə aparılan danışıqlar vasitəsilə müəyyən edilməlidir. Bu təklif sülh təşəbbüslərinin irəli sürülməsində ikivariantlı ("paket-mərhələli") nizamlama modelinin yaratdığı durğunluqdan çıxmaq cəhdi kimi görünür. Münaqişənin hər iki tərəfindən olan mütəxəssislər "keçid statusu" modelini 90-cı illərin sonlarını səciyyələndirən və bu gün artıq köhnəlmiş "paket-mərhələli" dixotomiyasından uzaqlaşmaq üçün yaranmış bir imkan kimi müsbət qiymətləndirirlər. Lakin məlumat var ki, Ermənistanın danışıqlardakı təmsilçiləri artıq ilkin sazişdə Dağlıq Qarabağın statusunu müstəqil dövlət kimi təyin edən bəndlərin təsbit edilməsinə çalışırlar. Əslində bu işğal edilmiş ərazilərin bir hissəsini müstəqil dövlət statusuna dəyişməkdən ibarət olan Yerevanın köhnə strategiyasının davamıdır. Əgər Ermənistan dövləti bu strategiyadan əl çəkməyəcəksə, danışıqlarda irəliləyiş gözləməyə dəyməz. Bu da o deməkdir di, Ermənistan-Azərbaycan münaqişəsinin yaratdığı gərginlik mənbəyi qalmaqda davam edəcək.